AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# KREDİTLƏŞMƏ FƏALİYYƏTİ VƏ MALİYYƏLƏŞMƏ MƏNBƏLƏRİNƏ DAİR SORĞUNUN NƏTİCƏLƏRİ

**IV rüb**
2024

## MALİYYƏ SABİTLİYİ DEPARTAMENTİ

## ABREVİATURALAR

**İKZF** - İpoteka və Kredit Zəmanət Fondu

**KOS** – Kiçik və orta sahibkarlıq

**MKOS** – Mikro, kiçik və orta sahibkarlıq

**HŞ** – Hüquqi şəxslər

**FŞ** – Fiziki  şəxslər

## Mündəricat

Giriş ........................................ 1
Sorğu nəticələrinin xülasəsi ........................................ 2
Biznes Kreditləri ........................................ 3
İpoteka kredit ləri ........................................ 5
İstehlak kreditləri ........................................ 6
Maliyyələşmə ........................................ 10

## Giriş

*Sorğunun məqsədi bank sektorunun kreditləşmə fəaliyyətinin və maliyyələşmə mənbələrinin monitorinqi və təhlili, maliyyə sabitliyinə təhdidlərin erkən rejimdə aşkarlanması, qiymətləndirilməsi və müvafiq prudensial siyasətin müəyyən edilməsi, habelə maliyyə sektoru iştirakçılarının müvafiq trendlər barədə məlumatlandırılmasıdır. Sorğu biznes, istehlak və ipoteka kreditləşməsinə dair tələb və təklif amillərinin qiymətləndirilməsi, o cümlədən, bankların maliyyələşmə mənbələrinin strukturunun və maliyyələşmə dəyərinin təhlil edilməsini əhatə edir. Sorğu çərçivəsində əhatə olunan məqamlar aşağıdakılardır:*

- *kredit standartlarında (siyasətində) dəyişikliklərin dinamikası*
- *kredit standartlarının dinamikasına təsir edən amillər*
- *kredit tələbində dəyişikliklərin dinamikası*
- *maliyyələşmə mənbələrinin strukturu*
- *maliyyələşmə dəyəri və ona təsir edən faktorlar*

*Sorğu keyfiyyət xarakterli suallardan ibarətdir və cavablandırılması kəmiyyət qiymətləndirməsi tələb etmir. Sorğunun nəticələrinin kəmiyyət vahidlərinə çevrilməsi üçün balans statistikası metodologiyasından istifadə edilir. Sorğu nəticələri əsasında ümumi tendensiyasını ölçmək üçün diffuziya indeksi göstəricisindən istifadə olunur. Diffuziya indeksi mənfi 100%-dən müsbət 100%-ə qədər dəyişir. Müsbət 100% indeks respondentlərin 100%-nin trenddə əhəmiyyətli yumşalma və ya artım, mənfi 100% indeks isə respondentlərin 100%-nin əhəmiyyətli dərəcədə sərtləşmə və ya azalma müşahidə etdiyini göstərir. İndeks 0% olduqda isə əvvəlki rüblə müqayisədə trendin dəyişmədiyini bildirir. İndeks hesablanarkən müvafiq portfeldə bankların bazar payından asılı olaraq onların cavablarına çəki verilib. Sorğunun respondentləri bankların baş kredit inzibatçıları və yaxud İdarə Heyətinin müvafiq sahə üzrə kuratorlarıdır.*

*Sorğu 2022-ci ilin I rübündən etibarən rüblük əsasda keçirilir. Cari hesabat dövründə sorğu keyfiyyətcə yenilənib və bankların maliyyələşmə mənbələri də sorğuda əhatə olunmağa başlanılıb. Hesabatda təqdim olunan gözləntilər Azərbaycan Mərkəzi Bankının gözləntilərini deyil, yalnız kreditləşmə fəaliyyəti və maliyyələşmə mənbələrinə dair sorğunun respondentlərinin (bankların) kreditləşmə, maliyyələşmə mənbələrinin strukturu və maliyyələşmə dəyərinin cari və gələcək tendensiyası ilə bağlı qiymətləndirmələrini əks etdirir.*

## Sorğu nəticələrinin xülasəsi

2024-cü ilin IV rübü üzrə sorğu nəticələrinə əsasən cəmi biznes kreditləri, o cümlədən kiçik və orta sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə standartlarda sərtləşmə olsa da, tələbdə artım müşahidə edilib. Banklar növbəti rübdə ümumi biznes kreditləri üzrə standartlarda və tələbdə dəyişiklik olmayacağı qənaətindədirlər.

Sorğu nəticələrinə əsasən ötən rübdə olduğu kimi ipoteka kreditləri üzrə standartlarda sərtləşmə davam edib. İpoteka kreditləri üzrə standartlarda sərtləşmə əsasən daxili ipoteka kreditlərində müşahidə edilib. Ötən rübdən fərqli olaraq banklar ipoteka kreditləri üzrə tələbdə artım olduğunu bildiriblər. Banklar növbəti rübdə ipoteka kreditləri üzrə kredit standartlarında dəyişiklik olmayacağını, bununla belə, kredit tələbində artım olacağını gözləyirlər.

Banklardan gələn sorğu nəticələrinə əsasən, 2024-cü ilin IV rübündə ümumi istehlak kreditləri, o cümlədən kredit kartları üzrə standartlarda sərtləşmə olmağına baxmayaraq tələbdə artım müşahidə edilib. Sorğuda iştirak edən respondentler növbəti rübdə istehlak kreditləri üzrə standartlarda və tələbdə dəyişiklik olmayacağı qənaətindədirlər.

Sorğuda iştirak edən respondentlər maliyyələşmə mənbələrinin strukturunda hüquqi və fiziki şəxslərin müddətli depozitlərində artım olduğunu bildirib. Banklar növbəti rübdə eyni tendensiyanın davam edəcəyini gözləyirlər. Sorğu nəticələrinə əsasən, maliyyələşmə mənbələrinin cəlb edilməsi istiqamətində banklararası rəqabətin artması şəraitində hüquqi və fiziki şəxslərin həm tələbli, həm də müddətli depozitləri üzrə maliyyələşmə dəyərində artım müşahidə olunub.

# Sahələr üzrə kreditlərin təhlili

## Biznes kreditləri

2024-cü ilin IV rübü üzrə sorğu nəticələrinə əsasən, mikro və iri sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə standartlarda dəyişiklik olmasa da, KOS subyektləri üzrə kredit standartlarında sərtləşmə müşahidə edililib. Banklar növbəti rübdə ümumi biznes kreditləri, o cümlədən mikro və iri sahibkarlıq subyektləri üzrə kredit standartlarında dəyişiklik olmayacağı, KOS subyektləri üzrə isə standartlarda sərtləşmənin davam edəcəyi qənaətindədirlər. Banklar biznes kreditləri üzrə standartlarda dəyişikliklərin əsasən yuxarı riskli kreditlərə tətbiq olunan marja və kreditlərin maya dəyərinin artımı formasında olduğunu qeyd ediblər.

*Qrafik 1. Biznes kreditləri üzrə standart və tələb dəyişikliyi*

*Diffuziya indeksi: müsbət göstərici=yumşalma və ya artım, mənfi göstərici=sərtləşmə və ya azalma*



Sorğuda iştirak edən bankların cavablarına əsasən, 2024-cü ilin IV rübündə MKOS və iri sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə tələbdə artım müşahidə edilib. Respondentlər tərəfindən tələbə artırıcı təsir edən amilin biznes subyektləri üzrə dövriyyə kapitalına ehtiyacın olması bildirilib. Banklardan gələn məlumatlara əsasən dövriyyə kapitalı ehtiyaclarının artımın əsas səbəbi borcalanların bizneslərini genişləndirməsidir. Banklar növbəti rübdə ümumi biznes kreditləri, o cümlədən MKOS subyektləri üzrə kredit tələbində dəyişiklik olmayacağını gözləyirlər.

2024-cü ilin IV rübündə biznes kreditləri üzrə standartlara sərtləşdirici təsir edən amillər bankların risk iştahaları və maliyyələşmə dəyəri olub.

*Qrafik 2. Biznes kreditləri üzrə kredit standartlarına təsir edən faktorlar*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma, mənfi göstərici=sərtləşmə)*




Bütövlükdə sorğu nəticələri bankların biznes portfeli üzrə artım tempinin növbəti rüb də davam edəcəyini göstərir.

## İpoteka kreditləri

Sorğunun 2024-cü il IV rüb üzrə nəticələrinə əsasən, ipoteka kreditləri üzrə standartlarda sərtləşmə davam edib. Sərtləşmə bankların daxili resurslar hesabına verilən ipoteka kreditləri üzrə olub. Daxili ipoteka kreditləri üzrə standartlarda sərtləşmə əsasən kreditlərin maya dəyərinin artımı formasında olub. İKZF hesabına verilən ipoteka kredit standartlarında dəyişiklik müşahidə edilməyib. Banklar növbəti rübdə həm İKZF hesabına verilən kreditlər, həm də daxili ipoteka kreditləri üzrə kredit standartlarında dəyişiklik olmayacağını gözləyirlər.

*Qrafik 3. İpoteka kreditləri üzrə standart və tələb dəyişikliyi*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma və ya artım, mənfi göstərici=sərtləşmə və ya azalma)*



Ötən rübdən fərqli olaraq 2024-cü ilin IV rübündə cəmi ipoteka kreditlərinə tələb artıb. Respondentlərin cavablarına görə tələbdəki artım İKZF hesabına verilən ipoteka kreditləri üzrə müşahidə olunub. Banklar 2024-cü ilin IV rübündə Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən regiondakı layihələr üzrə evlərin kütləvi satışa çıxarılmasını tələbin artmasına təsir göstərən faktor kimi qeyd edib. Banklar növbəti rübdə İKZF hesabına verilən ipoteka kreditləri üzrə tələbdə artım trendinin davam edəcəyi, daxili ipoteka kreditlərində isə tələbdə azalma olacağı qənaətindədirlər.

*Qrafik 4. İpoteka kreditləri üzrə kredit standartlarına təsir edən faktorlar*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma, mənfi göstərici=sərtləşmə)*




Bankların sorğuda qeyd etdiyi cavablara görə ipoteka kreditləri üzrə kredit standartlarına bankların kapital mövqeyi və maliyyələşmə dəyəri sərtləşdirici təsir göstərən faktorlar olub.

Bütövlükdə, sorğu nəticələrinə əsasən bankların ipoteka portfeli üzrə artım tempinin növbəti rüb də davam edəcəyi gözlənilir.

## İstehlak kreditləri

Sorğunun nəticələrinə əsasən, 2024-cü ilin IV rübündə cəmi istehlak kreditləri, o cümlədən kredit kartları üzrə kredit standartlarında sərtləşmə davam edib. İstehlak kreditləri üzrə standartlarda sərtləşmə əsasən kreditlərin maya dəyərinin artımı formasında olub. Respondentlər növbəti rübdə ümumi istehlak kreditləri, o cümlədən kredit kartları üzrə standartlarda dəyişiklik olmayacağını proqnozlaşdırırlar.

*Qrafik 5. İstehlak kreditləri üzrə standart və tələb dəyişikliyi*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma və ya artım, mənfi göstərici=sərtləşmə və ya azalma)*






Sorğu nəticələrinə əsasən, ümumi istehlak kreditlərinə, o cümlədən kredit kartlarına tələb artıb. Sorğuda iştirak edən respondentlərin cavablarına görə, tələbin artmasına təsir göstərən əsas faktor rəqəmsallaşma olub. Banklar növbəti rübdə ümumi istehlak kreditləri, həmçinin kredit kartlarına tələbdə dəyişiklik olmayacağını proqnozlaşdırırlar.

*Qrafik 6. İstehlak kreditləri üzrə kredit standartlarına təsir edən faktorlar*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma, mənfi göstərici=sərtləşmə)*




Sorğu nəticələrinə əsasən, istehlak kreditləri üzrə portfelin keyfiyyəti, kapital mövqeyi, maliyyələşmə dəyəri və əhalinin ödəmə qabiliyyətinə dair gözləntilər kredit standartlarına sərtləşdirici təsir göstərib.

Bütövlükdə, sorğu nəticələrinə əsasən bankların istehlak portfeli üzrə artım dinamikasının növbəti rüb də davam edəcəyi gözlənilir.

*Qrafik 7. Əhalinin tarixi borclanma səviyyəsi üzrə diffuziya indeksi*

*(Diffuziya indeksi: müsbət göstərici=artım, mənfi göstərici=azalma)*




*Qrafik 8. Son rüb ərzində əhalinin borclanma səviyyəsində dəyişikliklər*




Kreditləşmə fəaliyyətinə dair sorğunun cari ilin IV rüb üzrə nəticələrinə əsasən, respondent bankların 85%-i əhalinin borclanma səviyyəsində dəyişiklik olmadığını, 15%-i isə orta dərəcədə artım olduğunu bildirib. Nəticədə 2024-cü ilin IV rübü üzrə diffuziya indeksi 11% təşkil edib. Bu isə əhalinin borclanma səviyyəsində artım dinamikasının davam etdiyini göstərir.

## Maliyyələşmə

Sorğuda iştirak edən bankların cavablarına əsasən, 2024-cü ilin IV rübündə depozit faiz dərəcələrinin artımı fonunda bankların fiziki və hüquqi şəxslərin müddətli depozitləri vasitəsilə maliyyələşməsində artım müşahidə olunub. Fiziki şəxslərin tələbli depozitlərində heç bir dəyişiklik olmasa da, hüquqi şəxslərin tələbli depozitləri üzrə maliyyələşmədə cüzi azalma baş verib. Respondentlər növbəti rübdə fiziki və hüquqi şəxslərin müddətli və tələbli depozitləri üzrə maliyyələşmədə artım olacağını gözləyirlər.

*Qrafik 9. Maliyyələşmə mənbələrinin strukturu*

*(Diffuziya indeksi: müsbət göstərici=artım, mənfi göstərici=azalma)*




Kreditləşmə fəaliyyəti və maliyyələşmə mənbələrinə dair sorğunun nəticələrinə əsasən, 2024-cü ilin IV rübündə fiziki və hüquqi şəxslərin müddətli və tələbli depozitləri, həmçinin banklararası bazar üzrə maliyyələşmə dəyərində artım müşahidə edilib. Banklar növbəti rübdə də eyni tendensiyanın davam edəcəyini gözləyirlər.

*Qrafik 10. Maliyyələşmə dəyəri*

*(Diffuziya indeksi: müsbət göstərici=artım, mənfi göstərici=azalma)*



Sorğuda iştirak edən respondentlərin cavablarına əsasən, maliyyələşmə dəyərinin artmasına təsir edən əsas faktorlar faiz dərəcələri, bankın likvidlik mövqeyi, rəqabət və requlyativ çərçivədə baş vermiş dəyişikliklər olub.

*Qrafik 11. Maliyyələşmə dəyərinə təsir edən faktorlar*

*(Diffuziya indeksi: müsbət göstərici=artım, mənfi göstərici=azalma)*

